**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**

# ƏLAVƏ TƏHSİL PSİXOLOGİYA İXTİSASI ÜZRƏ QƏBUL İMTAHAN PROQRAMI

## *Mövzular və onların məzmunu*

### Mövzu 1:

Psixologiyanın predmeti. Psixika haqqında ümumi anlayış. Psixi inikasın xüsusiyyətləri. Psixi hadisələr: psixi proseslər, psixi hallar, psixi xassələr.

Beyin və psixika. Psixi funksiyalar və mühit.

Psixikanın filogenezdə inkişafı: tropizmlər, instinklər, vərdişlər və intellektual davranış.

Psixika və şüur. Şüurun strukturu və əsas psixoloji xarakteristikaları. Şüur və şüursuzluq.

Psixologiyanin əsas sahələri: Yaş psixologiyasının mövzusu və vəzifələri. Pedaqoji psixologiyanın mövzusu və vəzifələri.

**Əsas anlayışlar:** Psixika. Psixi proseslər. Psixi hallar və psixi xassələr. Filogenez. Şüur. Ali psixi funksiyalar. Psixologiyanın əsas sahələri.

### Mövzu 2: Psixologiyanın tədqiqat metodları

Psixoloji qanunauyğunluqların obyektiv xarakteri. Psixologiyanın tədqiqat prinsipləri. Determinizm prinsipi və psixodiaqnostika.

Psixologiyanın tədqiqat metodları: onların təsnifatı və ümumi xarakteristikası. Müşahidə və eksperiment üsulu. Psixoloji müşahidənin şərtləri, aparılması və növləri. Eksperimentin təşkili və növləri: təbii və laborator eksperiment, müəyyənedici və öyrədici eksperiment. Müasir psixologiyada eksperimentin əhəmiyyəti.

Psixodiaqnostik metodlar. Test nəzəriyyəsi və təcrübəsi.

**Əsas anlayışlar:** Psixologiyanın prinsipləri. Müşahidə. Eksperiment. Diaqnostik metodlar. Testlər.

### Mövzu 3: Fəaliyyət və ünsiyyət

Fəaliyyət və davranış haqqında anlayış. Fəaliyyət insanın dərk olunmuş məqsədilə tənzim olunan (psixi) və xarici (fiziki) fəallığı kimi.

Fəallıq və fəaliyyət. Tələbatlar fəallığın mənbəyi kimi. Tələbatların mənşəyinə ( təbii və mədəni) və predmetinə (maddi və mənəvi) görə növləri. İnsan tələbatlarının inkişaf xüsusiyyətləri. Tələbat və fəaliyyətin motivləri. Fəaliyyətin məzmun və formasını şərtləndirən başlıca amillər.

Motiv və məqsəd. Fəaliyyətin mənimsənilməsi və mümarisələr. Vərdişlər, bacarıqlar və adətlər.

Fəaliyyətin əsas növləri: Oyun, təlim, əmək. Onların psixoloji xüsusiyyətləri və uşaqların psixi inkişafında rolu.

Ünsiyyət haqqında anlayış. Ünsiyyət və fəaliyyətin vəhdəti.

Ünsiyyət informasiya mübadiləsi kimi. Kommunikasiya vasitələri, verbal ünsiyyət. Nitq. Nitqin funksiyaları və növləri. Ünsiyyət prosesində qeyri- verbal ünsiyyət vasitələrinin rolu.

Ünsiyyət qarşılıqlı təsir kimi. İnsanların qarşılıqlı təsiri və qarşılıqlı münasibətlərinin tənzim olunması. Ünsiyyət prosesində rollar və rol gözləmələri.

Ünsiyyət treninqi. Ünsiyyət mədəniyyəti.

**Əsas anlayışlar:** Fəaliyyət. Tələbatlar. Fəaliyyətin motivləri. İş və hərəkətlər. İnteriorizasiya, eksteriorizasiya. Vərdişlər, bacarıqlar, adətlər. Oyun. Təlim. Əmək. Pedaqoji fəaliyyət. Ünsiyyət. Verbal və qeyr-verbal ünsiyyət. Dil. Nitq. Sosial persepsiya. Rollar və rol gözləmələri. Şəxsiyyətlərarası ixtilaflar. Ünsiyyət mədəniyyəti.

## Mövzu 4: Şəxsiyyət, qrup və şəxsiyyətlərarası münasibətlər

Fərd, şəxsiyyət və fərdiyyət. Psixologiyada şəxsiyyət problemi. Şəxsiyyət insanın sosial keyfiyyəti kimi; şəxsiyyətin quruluşu. Şəxsiyyətin fəallığı və istiqaməti, sərvət meyilləri. Davranışın motivləri. Maraqlar. Şəxsiyyətin əqidəsi və dünyagörüşü.

Psixologiya və pedaqogikada şəxsiyyətin formalaşması anlayışı. Şəxsiyyətin inkişafının hərəkətverici qüvvələri. Sosial psixologiyanın əsas problemləri. Qrup haqqında anlayış. Qrupların təsnifatı. Kiçik qrup. Formal və qeyri-formal kiçik qruplar. Referent qrup. Qrup normaları və sərvətləri.

Liderlik və rəhbərlik.

Qrup və kollektivdə şəxsiyyətlərarası münasibətlər. Qrup differrensiasiyasının xüsusiyyətləri. İşgüzar münasibətlər. Şəxsi qarşılıqlı münasibətlər və onların tipləri.

Kiçik qrupda şəxsiyyətlərarası münasibətlərin xüsusiyyətləri. Şəxsiyyətlərarası seçmə. Onun sosiometriya baxımından təhlili. Şəxsiyyətlərarası münasibətlərdə seçmənin motivləşməsi. Şəxsiyyətlərarası seçmənin referentometrioya üsulu ilə öyrənilməsi.

Qrupdaxili inteqrasiya. Qrup həmrəyliyi. Birgə fəaliyyətdə müvəffəqiyyət və müvəffəqiyyətsizlik. Məsuliyyət fenomeni.

**Əsas anlayışlar:** Fərd. Şəxsiyyət. Fərdiyyət. Maraqlar. Mənlik şüuru. Özünüqiymətləndirmə. Qrup. Formal və qeyri-formal qruplar. Referent qrup. Psixoloji uyuşma. Liderlik və rəhbərlik. Şəxsiyyətlərarası münasibətlər. Sosiometriya. Şəxsiyyətlərarası münasibətlər. Liderlik. Psixoloji iqlim. Qrupdaxili təlqin. Psixoloji uyuşma. Sosiometriya. Referentometriya.

## Mövzu 5: Duyğu və qavrayış

Duyğular haqqında anlayış. Reseptorlar və analizatorlar. Duyğuların təsnifatı. Daxili və xarici duyğuların ümumi xarateristikası.

Duyğuların ümumi xassələri. Mütləq və fərqləndirmə həssaslığı. Adaptasiya. Duyğuların qarşılıqlı təsiri. Duyğuların inkişafı və sensor tərbiyənin aktual məsələləri.

Qavrayış haqqında anlayış. Duyğu və qavrayış. Qavrayış surətlərinin əsas xassələri: əşyaviliyi, tamlığı, seçiciliyi, sabitliyi, mənalılığı. Appersepsiya. Şəxsiyyətin istiqamətləri və qavrayış. Qavrayışda obyekt və fon. Qavrayışın həcmi.

Qavrayışın təsnifi. Qavrayışda hərəki proseslərin rolu. Müşahidə qavrayışın növü kimi. Müşahidə və müşahidəçilik. Məkan, zaman və hərəkət qavrayışı.

**Əsas anlayışlar:** Duyğu. Həssaslıq. Adaptasiya. Sensor tərbiyə. Qavrayış. Appersepsiya. Qavrayışın xassələri. Müşahidə və müşahidəçilik. Məkan, zaman və hərəkət qavrayışı.

## Mövzu 6: Diqqət və hafizə

Diqqət haqqında anlayış. Diqqət və şüur. Diqqətin funksiyaları. Diqqətin əhəmiyyəti və fizioloji əsasları.

Diqqətin növləri. Qeyri-ixtiyari diqqəti şərtləndirən amillər. İxtiyari diqqətin əmələ gəlməsinin şərtləri və xüsusiyyətləri. Diqqət və iradə. Diqqətin əsas xassələri: davamlılığı, keçirilməsi, paylanması, həcmi. Diqqətin pozulması. Dalğınlıq və onun növləri.

Təlim prosesində diqqətin əhəmiyyəti. Dərsdə şagirdin diqqətinin səmərəli təşkili yolları.

Hafizə haqqında anlayış. Hafizə və keçmiş təcrübə. Hafizənin əhəmiyyəti.

Hafizənin mexanizmləri haqqında nəzəriyyələr. Müasir psixologiyada hafizə problemi. Hafizə və şəxsiyyət. Hafizənin növləri və onların qarşılıqlı əlaqəsi. Qısamüddətli, uzunmüddətli və operativ hafizə.

Hafizə prosesləri. Yaddasaxlamanın növləri və onların əsas xüsusiyyətləri. Yaddasaxlama və fəaliyyət. Mənalı və mexaniki yaddasaxlama. Yaddasaxlamada diqqətin rolu. Yaddasaxlamaya təsir edən amillər. Öyənmə və onun səmərəli yolları. Yaddasaxlama və fəaliyyət.

Yadasalma, tanıma. Qeyri-ixtiyari və ixtiyari yadasalma. Xatirə. Unutma. Retroaktiv və proaktiv ləngimənin yadasalmaya təsiri. Reminissensiya. Unutma tempi.

Hafizə proseslərində fərdi fərqlər. Hafizənin tipləri. Hafizənin patalogiyası.

**Əsas anlayışlar:** Diqqət. Diqqətin növləri. Diqqətin xassələri. Dalğınlıq. Diqqətin təşkili. Hafizə. Hafizənin növləri. Yaddasaxlama. Öyrənmə. Yadasalma. Tanıma. Unutma. Hafizənin tipləri.

## Mövzu 7: Təfəkkür

Təfəkkürün mahiyyəti və xarakterik xüsusiyyətləri. Təffəkür və hissi idrak. Məntiq və psixologiyada təfəkkür problemi. Təfəkkür və nitq. Təfəkkürün motivasiyası. Spesifik və qeyri-spesifik idrak motivləri. Təffəkür və şəxsiyyət.

Fikri əməliyyatlar. Təhlil və tərkib. Müqayisə. Ümumiləşdirmə. Mücərrədləşdirmə. Konkretləşdirmə Məfhumların formalaşmasında onların rolu.

Təfəkkürün formaları: anlayışlar, hökmlər, əqli nəticə. Əqli nəticənin növləri: induktiv, deduktiv əqli nəticə və analogiya (təşbeh).

Təfəkkür və məsələ həlli. Problemli situasiyada və məsələ həlli prosesində təfəkkürün xüsusiyyətləri.

Təfəkkürün növləri: Nəzəri, nəzəri- obrazlı, əyani- obrazlı, əyani-əməli, mücərrəd təfəkkür. Yaradıcı təfəkkürün xüsusiyyətləri. Təfəkkür sahəsində fərdi fərqlər, əqli keyfiyyətlər: təfəkkürün müstəqilliyi, çevikliyi, sürəti, tənqidliyi. Psixologiyada ağıl, süni intellekt problemi.

**Əsas anlayışlar:** Təfəkkür. Məfhum. Hökm. Əqli nəticə. Təhlil. Tərkib. Müqayisə. Ümumiləşdirmə. Mücərrədləşdirmə. Konkretləşdirmə. Problem situasiyası. Fikri məsələ. Nəzəri, nəzəri- obrazlı, əyani- obrazlı, əyani-əməli, mücərrəd təfəkkür. Təfəkkürün fərdi xüsusiyyətləri. Yardıcı təfəkkür.

**Mövzu 8: Təxəyyül və yaradıcılıq**

Təxəyyül haqqında anlayış. Təxəyyül ali psixi funksiya kimi. Təxəyyülün fizilojі əsasları. İnsanın həyat fəaliyyətində təxəyyülün əhəmiyyəti. Autitreninqdə və psixoterapiyada təxəyyülün istifadə olunması.

Təxəyyül sürətlərinin yaradılması prosesi. Təxəyyülün növləri. Xülya. Röya surətləri. Bərpaedici və yaradıcı təxəyyül, onların başlıca xüsusiyyətləri.

Təxəyyül və oyun. Xəyal və praktik fəaliyyət. Yaradıcılıq-psixoloji fenomen kimi. Bədii və elm yaradıcılıqda təxəyyülün rolu. Yaradıcılıq prosesində təxəyyül sürətlərinin formalaşması.

**Əsas anlayışlar:** Təxəyyül. Bərpaedici və yaradıcı təxəyyül. Xəyal. Xülya. Bədii və elmi yaradıcılıq.

**Mövzu 9: Hisslər və iradə**

Hisslərin psixoloji mahiyyəti. Hisslərin insan həyatındakı rolu və əhəmiyyəti. İnsanın tələbatları, münasibətlər sistemi və hisslər. İnsanın idrak fəaliyyətində (qavrayış, diqqət, hafizə, təfəkkür, təxəyyüldə) hisslərin rolu. Hisslərin keçirilməsi formaları. Emosiyalar. Affektlər. Əhvallar. Stress. Frustrasiya halları. Tolerant reaksiyaların xüsusiyyətləri. Əsas emosional hallar və onların xarici ifadəsi. Emosional adaptasiyanın xüsusiyyətləri. Ekstremal şəraitdə emosional halların xüsusiyyətləri.

Hisslər və şəxsiyyət. Ali hisslər. Əxlaqi, intellektual, estetik və praksis hislər. Ali hisslərin formalaşması.

İradə haqqında anlayış. İradi iş ixtiyari işin xüsusi növü kimi. İradi işin əsas funksiyaları və onların əhəmiyyəti.

İradənin insan həyatında, onun fəaliyyətinin təşkilində, tənzim olunmasında və ünsiyyətdə əhəmiyyəti.

İradi işin quruluşu, onun motivasiya sahəsi ilə əlaqəsi. Motivlər mübarizəsi. Qərar qəbulu və onun icrası. İradə və təxəyyül. İradə və risk.

Şəxsiyyətin ilkin iradi keyfiyyətləri: iradi güc, təkidlilik. İkinci və ya törəmə iradi keyfiyyətlər: qətiyyətlilik, cəsarət, özünü ələ almaq, inam. Üçüncü iradi keyfiyyətlər: məsuliyyətlilik, intizamlılıq, işgüzarlıq, təşəbbüskarlıq.

Çətinliklərin aradan qaldırılması prosesində iradi səyin və məsuliyyəitin rolu.

**Əsas anlayışlar:** Hisslər. Emosional hallar. Affekt. Əhval. Stress. Frustrasiya. Ali hisslər. İradə. İradi iş. Motivlərin mübarizəsi. Qərar qəbulu. İradi səy. İradi keyfiyyətlər.

## Mövzu 10: Temperament və xarakter

Temperament haqqında anlayış. Temperament tipləri: xolreik, sanqvinik, fleqmatik, melanxolik. Temperament tiplərinin psixoloji xarakteristikası. Temperamentin fizioloji əsasları. Ali sinir fəaliyyəti tipi və temperament tipi.

Təlim fəaliyyətində temperamentin rolu. Peşə tələbləri və temperament. Temperment və fəaliyyətin fərdi üslubu.

Xarakter haqqında anlayış. Şəxsiyyətin münasibətləri və xarakter əlamətləri. Xarakterin iradi, emosional və intellektual əlamətləri. Xarakterin tipik və fərdi əlamətləri, onları şərtləndirən amillər. Etnik xarakterlər. Qadın və kişi xarakterlərinin xüsusiyyətləri. Xarakter əlamətlərinin aksentuasiyası. Xarakter və insanın zahiri görkəmi. Xarakter haqqında təlimlərin tarixində bu məsələlərin qoyuluşu. Xarakterin formalaşması. Xarakter və temperament. Xarakterin təbii və sosial şərtləri. Fəaliyyət və ünsiyyət prosesində xarakterin formalaşması. Şərait və xarakterin dəyişilməsi. Xarakter və özünütərbiyə məsələləri.

**Əsas anlayışlar:** Temperament. Ali sinir fəaliyyətinin tipləri. Temperament tipləri: xolerik, sanqvinik, fleqmatik, melanxolik. Temperament tipi və fərdi yanaşma. Xarakter. Xarakterin əlamətləri. Xarakterin aksentuasiyası. Xarakter və özünütərbiyə.

## Mövzu 11: Qabiliyyətlər

Qabiliyyət haqqında anlayış. Qabiliyyətlərin bilik, bacarıq və vərdişlərlə əlaqəsi, onlardan fərqi. Qabiliyyətlərin keyfiyyət xarakteristikası və onun əsas göstəriciləri. Qabiliyyətlərin kəmiyyət baxımından ölçülməsi. Xronoloji yaş və ağıl yaşı. İstedad anlayışı. Əqli istedad əmsalı. Bu sahədə tətbiq edilən testlər və onların təhlili.

Qabiliyyətlərin quruluşu. Qabiliyyətlər və fəaliyyət. Ümumi və xüsusi qabiliyyətlər. Qabiliyyətlər və insanların tipologiyası. Pedaqoji qabiliyyətlər. Talant qabiliyyətlərin yüksək mərhələsi kimi. Talant və ustalıq(məharət)

Qabiliyyətlər və talantın təbii şərtləri. Təbii imkanlar. Qabiliyyətlər və irsiyyət. Qabiliyyətlər və maraqlar.

Qabiliyyətlərin formalaşması. Qabiliyyətlərin formalaşmasında fəaliyyət və ünsiyyətin rolu. Əməksevərlik və qabiliyyətlərin inkişafı. Qabiliyyətlərin inkişafında ailə və məktəbin rolu. Qabiliyyətlərin və şagirdin peşəyönümünün vəzifəsi.

**Əsas anlayışlar:** Qabiliyyətlər. Əqli istedad əmsalı. Ümumi və xüsusi qabiliyyətlər. Pedaqoji qabiliyyətlər. İstedad. Talant. Qabiliyyətlərin formalaşması. Qabiliyyətlər və peşəyönümü. Qabiliyyətlər və irsiyyət.

Mövzu 11: Qabiliyyətlər

## ƏDƏBİYYAT:


1. Əkbər Bayramov, Əbdül Əlizadə. Psixologiya. Bakı, 2009
2. Səməd Seyidov, Muxtar Həmzəyev. Ümumi psixologiya. Bakı, 2014
3. Solmaz Həsənli. Psixologiya. Naxçıvan, 2013
4. Gültac Əliyeva. Psixologiya. Bakı, 2015
5. Ramiz Əliyev. Psixologiya. Bakı, 2003
6. Ələddin Qədirov Yaş və inkişaf psixologiyası. Bakı, 2003
7.